

Kənan Hacı

# Hacı İsgəndər

**Roman**

**(əvvəli ötən sayımızda)**

***Çar imperiyası Qafqazı özünün nüfuz çənbərinə salandan sonra onun ərazilərində tam ağalıq eləyirdi. Xüsusilə Azərbaycan torpaqlarına əcnəbilərin, ən çox isə rus və ermənilərin axını başlanmışdı. Mövcud idarəçilik işlərində yerli adamlar yuxarıdan aşağıyadək sıxışdırılır, onların vəzifələri gəlmə əcnəbilərə səxavətlə paylanırdı. Yeraltı, yerüstü sərvətləri mənimsəmək sahəsində görünməmiş bir cənfəşanlıq göstərilirdi. Avropaya Gəncəbasardan mis, qızıl, şərab, Zaqataladan qoz, fındıq, Şəki, Qarabağ və Naxçıvandan barama, yun, heyvandarlıq məhsulları, Lənkərandan düyü, balıq məhsulları və meşə materialı daşınırdı. Xüsusilə, Abşeron torpaqlarının neftli qatlarına başlanan kütləvi hücum daha vəhşiyanə idi. Neft sisternlərə, gəmilərin nəhəng çənlərinə doldurulub uzaqlara aparılır, millətimizə isə əsasən, qurudulub münbitləşdirilməsi bəlkə də heç zaman mümkün olmayan nəhəng, üfunətli göllər qalırdı.***

Özünün Avropalı və Şimal qonşuları ilə apardığı uzun illik müharibələr Rusiyanı yoxsul və çarəsiz vəziyyətə saldığı halda Şərqdəki istilaları ona zənginlik, qüdrət və tərəqqi bəxş etmişdi. İndi o, vaxtilə qırğınlarla tutduğu ərazilərdə siyasətin "pambıqla baş kəsmək" üsullarına daha çox üstünlük verirdi. Qəsb edilmiş yerlərdə təhsilin inkişafına, ən başlıcası isə ali məktəblər yaradılmasına mümkün qədər imkan verilmədiyi halda hər il mərkəzi şəhərlərdəki təhsil ocaqlarında kənar millətlərə səxavətlə yer ayrılırdı. Kənar millətlər üçün təhsil pullu idi. Məqsəd öz siyasətini, tarixi-mədəni yığıntılarını ucqarlara yeritmək idi. ***Bu yolla başqa xalqları assimilyasiyaya məruz qoymaq istəyirdilər. Hacı İsgəndər bu məsələlər haqqında düşündükcə gələcəkdə yerlərdə məktəblər açmaq, bu məktəblərdə uşaqlara öz tarixini, dilini, ədəbiyyatını öyrədən müəllimlər yetişdirmək istəyirdi. Savadsızlığ hökm sürdükcə millət cəhalət bataqlığında boğulacaqdı. Zəmanəmiz özgə zəmanədir. Bir gün mütləq hürriyyət, ədalət, insaniyyət günəşi bizim üstümüzdə, bizim üfüqümüzdə də doğulacaqdır. Bunun üçün çalışmaq, iş görmək lazım idi. Hər dəfə Rusiyaya, Avropaya gəncləri oxumaq, təhsil almaq üçün yollayanda içində bu arzusu baş qaldırırdı. Arzusunu gerçəkləşdirmək üçün yollar axtarırdı.***

Dəniz kənarındakı vətəgələrə baş çəkdikdən sonra evə qayıtdı, axşama döşəməplov sifariş verdi. Hacı İsgəndərin adətiydi, əziz qonağı gələndə həmişə arvadına döşəməplov bişirməyi tapşırardı. Böyük oğlu Əlihüseynlə dostu, sirdaşı Haşım bəyə və kəndin adlı-sanlı adamlarından olan Namulla bəyə xəbər yolladı ki, axşam bir ona baş çəksinlər. Haşım bəy Qafqazda tanınan və çox hörmətli tacirlərdən olmuş Hacı bəyin oğlu idi. İlk dini təhsilini ruhani atasından almış, atasının dostu Kərbəlayi Əzizin öz şəxsi mülkündə təsis etdiyi mədrəsədə ərəb, fars, türk, özbək, cığatay, rus dilləri və ədəbiyyatını, islam tarixini mükəmməl şəkildə öyrənmişdi. Özü də incə, zərif ruhlu qəzəllər yazırdı. Bu qabiliyyət ona babası Əliyar bəydən keçmişdi. Əliyar bəy şeir, sənət hamisi idi. Bir dəfə Əliyar bəy şamaxılı Mahmud ağa ilə birlikdə "Beytüs-səfa" şeir məclisinin qonağı olmuş fransız yazıçısı Aleksandr Düməni evinə dəvət edir, Buzovnadakı mülkündə bir neçə gün qonaq saxlayır, şərəfinə ziyafətlər verir, şeir-muğam məclisləri təşkil edir. Düma Əliyar bəydən minnətdarlıqla ayrılır, yerli şairlərin, peşəkar muğam ustalarının ifalarından məmnun qaldığını dilə gətirir. Haşım bəy ruzisini tacirliklə qazansa da şair kimi böyük şöhrət qazanmışdı.




Hacı İsgəndərin digər qonağı Namulla bəy də xeyirxah, əliaçıq bəylərdən idi. Kənd camaatı həmişə ondan razılıq edirdi. Hacı Zeynalabdin Tağıyev Hacı İsgəndərlə söhbətlərindən birində Namulla bəy haqqında belə demişdir: "O ki bu qədər kasıb-kusubun qayğısına qalır, Allahtəala həmişə onun ruzisini yetirəcək".

***Məryəm xanım aynabənddən həyətə boylananda darvazanın ağzında fayton dayandığını gördü. Hacı İsgəndər imkanlı adam olsa da heç vaxt qapısında nökər-naib saxlamırdı. Ona görə də qonaqların pişvazına özü çıxdı.***

Haşım bəy hündürboy, yaraşıqlı kişi idi. Həmişə zövqlə geyinərdi, başındakı buxara papaq ona xüsusi yaraşıq verirdi. İncə ruhlu şair, xoşrəftar insan olsa da, cəsur, qorxubilməz idi. O vaxtlar arada-bərədə "lotu" adı ilə meydan sulayanlar müxtəlif üsullarla camaatın gözünün odunu alır, var-yoxunu çapıb-talayırdılar. Bir gün şəhərdə lotubaşılardan biri Haşım bəyə ultimatum göndərir ki, bəs mənə filan vaxt filan qədər pulu verməsən, gülləni çaxacağam təpənə. Haşım bəy də xeyli fikirləşəndən sonra xəbər gətirən adama deyir ki, get ona de ki, sabah səhər gəlib pulu aparsın. ***Səhərisi gün şərtləşdikləri kimi lotubaşı Haşım bəyin qapısının kandarını kəsdirir, Haşım bəy əlində tələb olunan məbləğ qapıya çıxır və pulları lotubaşıya göstərib deyir: 'Pul, mal-dövlət üçün kimisə qətlə yetirən sənin kimilər kişi yox, nakişidirlər!" Qəfildən piştovu çıxarıb lotubaşının kəlləsinə çaxır, lotubaşı elə yerindəcə canını tapşırır.Haşım bəy yerli polis idarəsinə gedib hadisəni danışır, onu idarədə saxlayırlar. Məhkəmə prosesində heç bir vəkilin köməyi olmadan özü özünü müdafiə edir və bəraət alır.Bu, görünməmiş bir hadisə idi və kənd camaatı uzun illər Haşım bəyin igidliyi haqqında danışırdı.***

Namulla bəyin də namı hər yerdə yaxşılığa çəkilirdi. O da pulunu el üçün xərcləyənlərdən idi. İsgəndərin onların məsləhətinə ehtiyacı vardı. Qonaqlar üçün nəzərdə tutulmuş zalda geniş süfrə açılmışdı.Haşım bəyin zərif təbi belə məclislərdə dil açırdı. Bu dəfə də yeni yazdığı qəzəlini oxumazdan əvvəl ölkədəki vəziyyəti qısa müzakirə etdilər. Haşım bəyin zəkası, iti fəhmi siyasi vəziyyəti düzgün təhlil etməyə imkan verirdi. Birinci sözə də o, başladı:

- İmperiyanın sonu çatıb, bütün dayaqları çürüyüb. Lap yaxın zamanda çökəcək. Müstəmləkə xalqların öz azadlığı uğrunda mübarizəsi günü-gündən güclənməkdədir. Çar bu gücün qarşısında duruş gətirə bilməyəcək. Vətəndaş müharibələri də Rusiyanı pis günə qoyub.

Namulla bəy dərindən köks ötürdü:

- Eeh, elə bilirsən bu bolşeviklər gələndən sonra bizim başımızı sığallayacaqlar? Nəyimiz var, tutub əlimizdən alacaqlar.

Haşım bəy dostuyla razılaşmaq istəmədi:

- Namulla bəy, sən elə öz mal-dövlətinin hayındasan. İstəmirsən ki, millətimiz azadlığa çıxsın?

- Çıxsın e, amma nə deyirsən de, mənim bu bolşeviklərdən heç gözüm su içmir, Haşım bəy.

- Nə qədər pis olsa, indikindən yaxşı olacaq. Mən də bu zəmanəyə bir şeir yazmışam, istəyirəm yemək gələnəcən onu sizə oxuyum.

- Oxu, Haşım bəy. Sənin qələmin xəncər kimi itidir, qabağına çıxanı doğrayır. Oxu.

İsgəndər Saqibi dinləmək üçün yerini rahatladı.

Haşım bəy pencəyinin döş cibindən bükülü vərəq çıxarıb boğazını arıtladı və şeiri oxumağa başladı:

Qoydu qan bağrıma ol zülfi-qəra, kim-kimədür,
Nə qədər qısa mənə cövrü-cəfa, kim-kimədür.

**Sən də ey dil, eləmə ahu-fəğanın tərkin,**
**Yandır aləmləri, ey bəxti qəra, kim-kimədür.**

**Dəgişib dövrü-zamanə, hərə bir nəğmə oxur,**
**Hökmranlıq eləyir şahə gəda, kim-kimədür.**

**Yaxşı ilə yamanə fərq qoyan yoxdur heç,**
**Ya Hüseyn olgilə, ya Şimridəğa, kim-kimədir.**

**Sözün həqqin demə xəlqə əbəs, yox eşidən,**
**Qaranı ağ oxu, ağı qəra, kim-kimədür.**

**O sənindür, bu mənim, keçdi o günlər, keçdi,**
**Varuvi kim aparır, olma riza, kim-kimədür.**

Dadu-fəryad eləmə, pərdeyi-ismət getdi,
Düşdü əldən-ələ, məhv oldu həya, kim-kimədür.

Şeirə diqqət kəsilən Namulla bəy arada başını yelləyib "bəh-bəh, gözünə dönüm, yaman demisən!", - deyirdi. Şairi alqışladılar. Namulla bəy dedi:

***- Bu şeirə qiyməti Azər verə bilər. Biz bisavad adamlarıq. Amma doğru sözümdür, sən böyük şairsən, Haşım bəy!***

***Haşım bəy tərifi xoşlayan adam deyildi.***

***- Namulla bəy, məni az təriflə. Biz Füzuli, Seyyid Əzim kimi dahilərin söz dəryasından bir damla götürməyə cəhd edənlərik. İstəyirik o dəryadan bir çömçə də biz götürək. Ancaq götürə bilirik ki?!***

(davamı gələn sayımızda)

**Müəllifdən**

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən "Xalq Qəhrəmanı" ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. 'Hacı İsgəndər" romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tariximizlə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*